


**Hörmətli tədbir iştirakçıları, dəyərli qonaqlar!**

Sizi Bakı Slavyan Universitetinin professor-müəllim heyəti və tələbələri adından Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, YAP Gənclər Birliyi və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə **"Müasir şəhərsalma viziyonu: Ənənə və innovasiyaların harmoniyası" rəqəmsal ideya müsabiqəsinin mükafatlandırma mərasimində** səmimi qəlbdən salamlayıram.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli Sərəncamı ilə 2026-cı il Azərbaycanda "Şəhərsalma və memarlıq ili" elan edilmişdi. Bu Sərəncam Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsirlik zəngin keçmişini, tarixən İpək Yolu üzərində yerləşən mədəniyyət və ticarət mərkəzləri kimi iri şəhərlərimizin özünəməxsus memarlıq irsini, UNESCO-nun Ümumdünya İrs Siyahısında daxil edilmiş qədim və orta əsrlər şəhər mədəniyyətlərini özündə əks etdirən bir çox dünya əhəməyyətli şəhərsalma və memarlıq incilərini, bu irsin mühafizəsi istiqamətində həyata keçirilən dövlət siyasətini, dördüncü sənaye inqilabı dövrünün inkişaf və innovasiyalarını özündə cəmləşdirən çağdaş şəhərsalma nümunələrini nəzərə almaqla mühüm tarixi əhəmiyyətə malikdir. Sərəncamda qeyd edildiyi kimi, "bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi

doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Mömünə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi kimi misilsiz nümunələr Azərbaycan memarlığının rəmzlərinə çevrilmişdir".

Qədim dövrlərdən başlayaraq erkən orta əsrlər və sonrakı dövrlərdə yaradılmış şəhərsalma və memarlıq abidələri ölkəmizin mədəniyyət və tarixi irsini nümayiş etdirir. Xüsusilə qeyd olunmalıdır ki, Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ olmaqla, bu dövrdə qədim tarixə malik şəhər və memarlıq abidələrimizin qorunması istiqamətində sistemli və institusional fəaliyyət həyata keçirilmişdir. Bu illər, həmçinin, yeni şəhərlərin yaradılması, eləcə də şəhərlərin dövrünün müasir tələblərinə uyğun olaraq inkişafı ilə xarakterizə olunmuşdur. Çağdaş dövrümüzdə Heydər Əliyev Mərkəzi kimi müasir şəhərsalma inciləri ilə zəngin olan şəhərsalma və memarlıq mədəniyyətimizin identikliyinin bənzərsiz nümunələrinə şahidlik edirik.

Hər bir Azərbaycanlının iftixar yeri olan doğma Bakı şəhəri dünyanın ən gözəl şəhər mədəniyyətlərindən biri olmaqla müasir şəhərsalma mədəniyyətinin bariz nümunəsini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi sistemli siyasət nəticəsində şəhərimizin qədim tarixi ənənləri elm, texnologiya və innovasiyaların cəmləşdiyi mükəmməl şəhər modelini səciyyələndirir.

**Hörmətli tədbir iştirakçıları,** artıq 6-cı ildir ki, biz ölkəmizin ərazi bütövlüyünün təmin olunmasının təntənəsini yaşayır, suverenliyimizin bizə verdiyi imkanları tarixi abidələrimizin, şəhər və memarlıq irsimizin bərpasına həsr edirik. 2022-ci ilin payızında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə işğaldan azad edilmiş Ağdam şəhərində BMT-nin Məskunlaşma Proqramı (UN-HABİTAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilatı dəstəyi ilə "Dayanıqlı İnkişaf Məqəsdləri və Yeni Şəhər Gündəliyi- postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu keçirildi. Forumdakı çıxışını ölkəmizin rəhbəri bir zaman həyat dolu olan şəhərdə, bir vaxtlar Ağdam şəhərinin yerləşdiyi məkanda iştirakçıları salamlamaqla başlamışdı.

Mənim də uşaqlıq illərimin ən gözəl xatirələrini yaşadığım doğma şəhərim olan Ağdam şəhəri təəssüff ki, XX əsrin sonlarından urbisid – öldürülməyə məruz qoyulmuş şəhərlərindən biri olmuşdu.

44 günlük Vətən Müharibəsinin bitməsindən qısa zaman sonra keçirilən bu Forumun 40-dan çox ölkədən olan iştirakçıları, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ağdama Fizuli şəhərində salınmış müasir hava limanına enməkə gəlmişdilər. Bütün bunlar, qısa zaman ərzində kənd və şəhərlərimizin, tarix və mədəniyyət mərkəzlərimizin sürətlə bərpa olunduğunun nümunələridir.

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, düşmən otuz il ərzində Şuşanın ruhunu dəyişə bilmədi. Ölkə rəhbərinin "Şuşa, sən azadsan! Şuşa, biz qayıtmışıq! Şuşa, biz səni dirçəldəcəyik!" kimi xitabı 30 il ərzində dağıdılmağa məruz qoyulmuş şəhər mədəniyyətimizi dirçəltmək arzumuzu milli qürurumuzun və özünüdərkimizin mərkəzinə gətirdi. Məhz bu məqsədyönlü siyasətin nəticəsi olaraq bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəldilir, burada salınan şəhər və qəsəbələr dünyanın ağıllı və yaşıl keçid mərkəzlərinə çevrilməkdədir.

**Hörmətli tədbir iştirakçıları,**

Bakının ev sahibliyi edəcəyi növbəti mötəbər tədbirlərdən biri 13-cü Dünya Şəhərsalma Forumu olacaqdır. 2024-cü ildə şəhərimizdə keçirilmiş COP 29 və bir çox digər tədbirlərdə olduğu kimi "WUF 13"- də də yüz milyonlarla insanın gündəlik həyatına təsir edəcək qərarların qəbul ediləcəyi şübhəsizdir. Danılmaz reallıqdır ki, Bakı siyasi və beynəlxalq əhəmiyyəti ilə bərabər tarixilik, müasirlik və innovasiyaların mərkəzi olaraq dünyanın qlobal siyasət, mədəniyyət və inkişaf paytaxtlarından birinə çevrilmişdir.

**Hörmətli tədbir iştirakçıları,**

Müasir Azərbaycan dövlətinin banisi Ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində "Memarlıq və şəhərsalma İli" çərçivəsində həyata keçirilən "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" Rəqəmsal İdeya Müsabiqəsi ölkəmizin müxtəlif yerlərindən 100-dən çox gənci bir araya gətirir.

Müsabiqənin əsas məqsədi ənənəvi Azərbaycan memarlıq dəyərlərinin müasir şəhərsalma texnologiyaları ilə harmonik şəkildə birləşdirilməsidir. Burada rəqəmsal həllərin, 3D modelləşdirmənin və innovativ planlaşdırma metodlarının

tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma şəhər mühitinin daha funksional, ekoloji və estetik baxımdan inkişafına şərait yaradır.

Qeyd etməliyəm ki, Bakı Slavyan Universitetinin **“Şəhərsalma və Memarlıq İli” və digər müvafiq fəaliyyət planları çərçivəsində müxtəlif tədbirlər keçirilir, fənlərarası tədqiqatlar təşviq edilir, dayanıqlı və inklüziv universitet modelinin qurulması istiqamətində addımlar atılır. BSU-nun xarici dillərin öyrənilməsi və təhsilin idarə olunması məqsədi ilə süni intellekt və rəqəmsal tətbiqlərin və bacarıqların yaradılmasını hədəfləyən “LinguAİ labaratoriya” layihəsinin innovativ şəhər mühitində dil öyrənilməsi üçün faydalı nəticələrinin olacağına inanırıq.**

**Artıq dörd ildir ki, BSU-nun uğurla həyata keçirdiyi “İnklüziv təhsildən inklüziv cəmiyyətə” layihəsinin daha inklüziv şəhər icması üçün müəllim hazırlığı, bacarıqların və pedaqoji həllərin yaradılması istiqamətində mühüm rol oynaya biləcəyinə inanırıq. ETN-nin dəstəyi ilə layihənin ölkəmizin ümumtəhsil müəssisələrində çalışan yüzlərlə pedaqoji heyət üzvünü və ali təhsil müəssisələrindəki həmkarlarımızı bir araya gətirən bacarıqların artırılması, əlaqələndirmə və şəbəkələşmə tədbirlərini xüsusi vurğulamaq istəyirəm. Bu xüsusda UNEC ilə birlikdə “inklüziv təhsil - dayanıqlı əməkdaşlıq” alyansı təşəbbüsünün “Şəhərsalma və Memarlıq İli”-nin məramları baxımdan da mühüm əhəmiyyət daşıdığına əminəm.**

**BSU-nun Qərbi Azərbaycan elmi-tədqiqat mərkəzi Qərbi Azərbaycandakı mədəni və milli irsimizə dair tədqiqatlar aparmaqla yanaşı, Qərbi Azərbaycan həqiqətlərinin çatdlırılmasında öz töhfəsini verməyə çalışır, bu istiqamətdə universitetimizdə tədris olunan 11 dil üzrə müxtəlif materiallar hazırlanır və ya tərcümə olunur. Xüsusi olaraq ADNSU ilə Qərbi Azərbaycan abidələrinin “Rəqəmsal İrs” platformasının yaradılmasına dair birgə fəaliyyətinin əhəmiyyətli nəticələrinin olacağına və “Şəhərsalma və Memarlıq İli” məqsədlərinə xidmət edəcəyinə inanırıq.**

**Hörmətli tədbir iştirakçıları,**

Bir daha hər birinizi Ulu öndər Heydər Əliyevin universitet statusu verdiyi 80 yaşlı Bakı Slavyan Universitetində salamlayır, müsabiqədə iştirak etmiş gəncləri və qalibləri təbrik edir, tədbirin işinə uğurlar arzulayıram.